**UOT: 78.801.81**

# MƏHƏMMƏD FÜZULİNİN “LEYLİ VƏ MƏCNUN” MƏSNƏVİSİNDƏ MƏHƏMMƏD PEYĞƏMBƏRİN KAMAL VƏ CAMAL SİFƏTLƏRİ

***f.ü.f.d. Quliyeva Ruziyə Zaman qızı***
***AMEA Gəncə Bölməsi Humanitar Tədqiqatlar İnstitutu***
***ruziya.zaman.55@bk.ru***

**Xülasə:** *Məqalədə Məhəmməd Füzulinin “Leyli və Məcnun” məsnəvisində Məhəmməd Peyğəmbərin kamal və camal sifətlərindən bəhs edilir.*

*Bu məqsədlə ilk öncə meracnamələr və onların mahiyyəti haqqında bilgilər verilir. Mövzunu daha dərindən tədqiq etmək üçün müqəddəs kitabımız Qurani-Kərimə və Nizami Gəncəvinin “Leyli və Məcnun” məsnəvisinə istinad edilir.*

**Açar sözlər:** klassik ədəbiyyat, Leyli və Məcnun, epik şeir, məsnəvi

**Ключевые слова:** классическая литература, Лейли и Меджнун эпический стих, маснави

**Key words:** classical literature, Leyli and Majnun, epic poem, masnavi

Dastan-məsnəvilərdə verilən ənənəvi müqəddimələrdən biri də meracnamələrdir.Meracnamələr bir qayda olaraq tövhid, minacat və Peyğəmbərin nətindən sonra gəlir.

Müqəddəs kitabımız “Qurani-Kərim”in “Əl-İsra və ya Bəni-İsrail” surəsinin 1-ci ayəsində merac haqqında buyrulur: “Bəzi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlikləri və əcaiblikləri) göstərmək üçün bəndəsini (Peyğəmbər əleyhissəlamı) bir gecə [Məkkədəki] Məscidül-həramdan ətrafını mübarək etdiyimiz [bərəkət verdiyimiz] Məscidül- əqsaya [Beytülmüqəddəsə] aparan Allah pak və müqəddəsdir” (1, 249).

Məhəmməd Füzuli “Leyli və Məcnun” məsnəvisindəki meracnaməni “Bu, şəbi merac bəyanidir və tülui-aftabi-asimanidir” (Merac gecəsinin bəyanı və göylər günəşinin doğması) adlandırır və həmin bəhsdə Məhəmməd Peyğəmbərin kamal və camal sifətlərini belə təsvir edir:

Çün feyzi-vicudun ilə, ey pak,
Rəşki-fələk oldu ərseyi- xak,
Didarını görməyi mələklər,
Pabusuna yetməyi fələklər,
Çox eyləyib iztirab peyda,
Allahdan etdilər təmənna.

(10, 29).

Maraqlıdır ki, meraca qalxmağı Peyğəmbər özü yox, səma əhli (mələklər və fələklər) Allahdan dilədilər. Bunun səbəbi onda idi ki, Məhəmməd Peyğəmbər adi insan olsa da kamilləşərək paklaşmış, əvvəlcə peyğəmbərlik, sonra isə meraca qalxmaq məqamına yüksəlmişdi. Səma əhli onun cismani vücudunu yox, nurunu görmək arzusunda idi. Bir yaxşı zaman, şərafətli saatda onların duaları qəbul olundu. Cəbrayıl fərman gətirdi:

Cibril yetib, yetirdi fərman,
-Key sərvi-riyazi-elmü irfan!
Xurşidini ərşə sayə qılğıl!
Meraci-büləndpayə qılğıl!

(10, 24).

Bu fərmandakı birinci sözə diqqət yetirsək görərik ki, Füzuli Məhəmməd Peyğəmbəri "sərvi-riyazi-elmü irfan" (elm-irfan bağçasının sərvi) adlandırır.

Məlum olduğu kimi şifati-sübutiyyənin (yalnız Allaha məxsus sifətlərin) ikinci keyfiyyəti Allahımızın ən gözəl adlarından biri olan alimdir. Məhz bu səbəbdən də Füzuli Məhəmməd Peyğəmbəri elm-irfan bağçasının sərvi deyə vəsf edir.

Cəbrailin gətirdiyi fərmanda daha sonra deyilir:

Ey qədri bülənd padişah, dur!
Lütf et, şəbi-qədr qədrini artır!
Rəf eylə hicabı-masəvani,
Seyr eylə məkani-laməkani!

(10, 29).

Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasında həmin fikirlər belə ifadə olunur:

Bu gecə sənin gecəndir,tələs,
Öz qədr gecənin qədrini bil!
Ədəbiyyət bəzəyidir bu gecə,
Məhəmmədin merac gecəsidir bu gecə.
Nə xoşbəxtdir o gecə ki,
Sənin dünyanı işıqlandıran qədəminlə gündüzə döndü.

(11, 26)

Göründüyü kimi Füzuli də öz sələfi Nizami Gəncəvi kimi qədr gecəsini xoşbəxt gecə adlandırır. Bu gecə ona görə xoşbəxdir ki, həmin gecədə müqəddəs kitabımız Qurani-Kərim nazil olmuşdur. Məhəmməd Peyğəmbərin meraci isə həmin gecəni daha da şərəfli etmişdir. Çünki Qurani-Kərimin nurundan yer üzü, Peyğəmbərin nurundan isə göy üzü işıqlanmışdır.

Həm Nizami Gəncəvi, həm də Füzuli Məhəmməd Peyğəmbərin merac gecəsi mindiyi Buraq adlı insan başlı atdan bəhs etmişdir. Nizami Gəncəvidə Buraqla səmaya qalxmaq məqamı daha geniş və ətraflı təsvir olunur:

Pərgari yerə sancdın,
Göyün cədvəlini çəkdin.
Adı Buraq olan şimşəyi
Sənin gedişindəki helm ram etdi.
Əl toxunulmamış taxta (göylərə) yüksəldin.
Bir xoşbəxt kimi uçan oldun [uçdun].

Bir atla elə çapdın ki,
İki atlı [gecə-gündüzlü] dövranı arxada buraxdın.
Fələyin (bağı) dörd bir tərəfdən
Sənin mərhəmətindən min bəhər verdi.

(11, 26)

Göründüyü kimi Nizami qələmində Buraq adlı atı Peyğəmbərin helmi özünə ram edir. Meraca yalnız belə bir atla getmək mümkündür. İki atlı dövran dedikdə zamana tabe olan dünya həyatı, fələyin bağı dedikdə isə ulduzlu səma nəzərdə tutulur.

Paralellər aparsaq görərik ki, Məhəmməd Füzuli qələmində merac gecəsi haqqında daha qısa və yığcam məlumat verilir:

Xoş ol ki, minib Büraqi xoşhal,
Buludun dərəcati-üzünü iqbal.
Basdın ayağın bu çar tağə,
Çıxdın dərəcati-növrağə

(10, 29-30).

"Xoşhal" olub Büraqi minən Peyğəmbər izzət və iqbal dərəcəsinə çataraq dördtağlı göyə ayq basıb doqquzqatlı səmaya yüksəlmişdir. Burada dörd tağlı göy dedikdə göyün dördüncü qatı, doqquzqatlı səma dedikdə isə göyün doqquzuncu qatı nəzərdə tutulur. Onu da qeyd etməliyik ki, türklərin mifoloji təfəkküründə göyün doqquzuncu qatı ən yüksək qat hesab olunmuşdur. Doqquz rəqəminin müqəddəsliyi də məhz bu inamdan irəli gəlmişdir.

Füzuli Məhəmməd Peyğəmbərin pak və müqəddəs olduğunu nəzərə çatdırmaq üçün onun səma səltənətinə Büraq adlı atla getdiyini təsvir edir. "Şamanlarda və qədim türklərdə atın müqəddəsliyi və  Məhəmmədin atla göylərə yüksəlişi arasında da maraqlı bir tiploji yaxınlıq vardır. Başqa bir tərəfdən, Azərbaycan əsatir və dastanlarında Xızır obrazı və Boz atın ayaq tozunun şəfaverici olması diqqiti cəlb edir".(3, 311- 312).

Məhəmməd Füzuli Məhəmməd Peyğəmbəri "göylər günəşi" adlandırır. Merac zamanı səma əhli göylər günəşindən nur alır. Təzə ay onun başmağına üz sürtür, Günəş Peyğəmbərin camalından nurlanır:

Nəleyninə sürtdü üz məhi-növ,
Xurşid rüxündən aldı pərtov.

(10, 30).

Daha sonra "sabitlər səfinə"-(hərəkətsiz ulduzlar cərgəsinə) bayraq çəkib o tarlaya məhəbbət toxumu əkən Məhəmməd Peyğəmbər göyün ətləsinə ( sabit ulduzların üstündəki qaranlıq qata) rəng vurur və o məclisə özgə bir yaraşıq verir. Lövhü və qələmi bəzəyərək ərs ilə kürsünü işıqlandırır:

Rəyət səfi-sabitatə çəkdin,
Ol məzrəə mehr toxmun əkdin;
Qıldın fələk ətləsini rəngin,
Ol məhfilə verdin özgə ayin.
Lövhü qələmi müzəyyən etdin,
Kürsü ilə ərşi rövşən etdin.

(3, 30).

Merac zamanı Cəbrayıl Məhəmməd Peyğəmbəri müşaiyət edir. Amma ərşin ən yüksək nöqtəsində elə bir məqam yetişir ki, artıq o məqamda Peyğəmbər tək qalmalı idi:

Cibrili qoyub, Büraqı saldın,
Tövhid yolunda tək qaldın.

(3, 30).

Tək qaldığı zaman Məhəmməd Peyğəmbərlə Allah arasında pərdə qalxır və onların arasında yayın ortası ilə bir ucu qədər məsafə qalır:

Rəf oldu sənə hicabi-mabeyn,
Nüzhətgəhin oldu qabi-qövşeyn.

(3, 30).

Məhəmməd Peyğəmbər özü də bəşərdir, insanlar içərisindən seçilmişdir. Onların istədiyindən, arzusundan, əməllərindən, dünya həyatının çətinliklərindən, əzablarından xəbərdardır. Məhz bu səbəbdən də insanlar üçün Allah dərgahında dilək diləyir və Allahdan müjdələr gətirir:

Getdin o yerə ki, getmək olmaz,
Yetdin o yerə ki, yetmək olmaz.
Bizdən həqə ərzlər yetirdin,
Həqdən bizə müjdələr gətirdin.

(3, 30).

Həqq Dərgahında zaman ölçüsü və zaman məfhumu öz dəyərini itirir. Peyğəmbər səfərdən dönəndə hələ yatağı isti idi. Gəldiyi yolların isə tozu hərəkətdə idi. Zamansız bir zaman içində dəryadan coxlu gövhər götürən Peyğəmbər zövq ilə geri dönmüşdü.

***Ədəbiyyat***

1.Qurani-Kərim. Ərəb dilindən tərcüm edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev. Bakı, Azərnəşr, 1992
2.Qurani-Kerim mealı. Hazırlayanlar: Dok.Dr.Halil Altuntaş, Dr.Muzaffer Şahin. Ankara. Diyanet işleri Bakanlığı yayınları /527. Kaynak Eserler /26, 2008
3.Gümşüdoğlu N. Füzulinin sənət və mərifət dünyası. Bakı – Tehran, 1997
4.Azadə R.Azərbaycan epik şerinin inkişaf yolları (XII-XVII əsrlər), Bakı, 1975
5.Azərbaycan ədəbiyyat tarixi, Altı cilddə, III cild, Bakı, 2009
6.Azərbaycan ədəbiyyat tarixi(Müxtəsər), İki cilddə, I c, Bakı, 1943
7.Azərbaycan ədəbiyyat tarixi, Üç cilddə, I c, Bakı, 1960
8.Səfərli Ə. Yusifli X. Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı, Bakı, 1982
9.Səfərli Ə. Yusifli X. Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı, Bakı, 1998
10.Füzuli M. Əsərləri, II cild, Bakı, 1958
11.Nizami Gəncəvi. Leyli və Məcnun, Bakı, 1981

## БЛАГОРАЗУМИЕ И СОВЕРЩЕНСТВО ОБЛИКА ПРОРОКА МАГОМЕДА В МЕСНЕВИ МАГОМЕДА ФИЗУЛИ «ЛЕЙЛИ И МЕДЖНУН»

***Куиева Рузия Заман кызы***

***Резюме***

В статье повествуется о благоразумии и совершенном облике пророка Магомеда в месневи Магомеда Физули «Лейли и Меджнун». С этой целью, прежде всего, подаются знания о вознесении и их значении.

Для более глубокого раскрытия темы опираемся на священный Коран и месневи Низами Гянджеви «Лейли и Меджнун».

## PROPHET MUHAMMAD`S FACES OF KAMAL AND CAMAL IN MAHAMMAD FUZILI`S MASNAVI OF “LEYLI AND MAJNUN”

***Gulieva Ruziya Zaman***

***Summary***

The article talks about prophet Muhammad`s faces of Kamal and Camal in Mahammad Fuzili`s masnavi of “Leyli and Majnun”. With this purpose, first of all we give information about the importance of meracnameler. In order to further investigate the subject it is referenced to our holy book Quran and Nizami Ganjavi`s masnavi in “Leyli and Majnun”.

***Rəyçi: professor Xəlil Yusifli***
***AMEA Gəncə Bölməsi Ədəbiyyat şöbəsinin 18.07.2022-ci il tarixli iclasının 08 saylı protokolu.***
***Daxil olma tarixi 22.07. 2022-ci il***